# NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ



## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

2022-ci il ərzində penitensiar müəssisələrdə saxlanılan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə məhkum olunmuş şəxslərin sayı 7979 nəfər, onlardan məhkəmələr tərəfindən narkomaniyadan məcburi müalicə təyin edilmiş məhkumların sayı isə 5513 nəfər təşkil etmişdir.

Gənclər arasında antinarkotik təbliğat işinin daha da gücləndirilməsi, maarifləndirmə tədbirlərinin sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsi məqsədilə Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında 2022-ci ili əhatə edən birgə təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədilə təlimçilərin hazırlanması, fləşmobların, müxtəlif həştaqlarla sosial aksiyaların, müxtəlif idman növləri üzrə turnirlərin və yarışların, mədəni-kütləvi tədbirlərin, mövzuya dair dəyirmi masaların, rəsm sərgilərinin keçirilməsi və tədbirlərin televiziyada işıqlandırılması təmin edilib və hesabat dövründə ümumilikdə birgə 18 tədbir həyata keçirilib.





Belə ki, Rəşid Behbudov adına Mahnı Teatrında dövlət qurumlarının, incəsənət nümayəndələrinin, partiya fəallarının iştirakı ilə "Gələcəyimizə sahib çıxaq - Narkotiklərə yox deyək!" adlı mədəni-kütləvi tədbir;









**"Zərərli vərdişlərə yox de, sağlam həyat tərzini seç" devizli yeniyetmələr arasında sərbəst güləş idman növü üzrə turnir;**






**Xətai Sənət Mərkəzində "Narkomaniyaya yox deyək!" mövzusunda sərgi;**









**"Gənclər sağlam həyat tərzini seçir" devizi altında basketbol idman növü üzrə turnir;**





**"Bizdən biri ol, sağlam gələcəyini seç" devizli minifutbol idman növü üzrə turnir;**





**Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində "Gələcəyimiz naminə narkomaniyaya yox deyək!" adlı qol güləşi idman növü üzrə açıq turnir;**





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

**26 iyun BMT-nin "Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü" ilə əlaqədar 600 nəfərdən çox gəncin iştirakı ilə "Gələcəyimizə sahib çıxaq – Narkotiklərə yox deyək!", "Sağlam gələcəyi seç – Bizdən biri ol!", "Gənclər sağlam həyat tərzini seçir!" adlı fləşmoblar;**





Narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədilə təlimçilərin hazırlanması, mövzuya dair dəyirmi masaların təşkili və tədbirlərin televiziyada işıqlandırılması təmin edilib.










## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.26-cı yarımbəndinin icrası məqsədilə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə imzalanmış Tədbirlər Planına müvafiq olaraq, məktəb psixoloqları üçün təlimlər,ümumtəhsil məktəblərinin uşaq birliyi rəhbərləri, valideyn komitəsi sədrləri, məktəb-valideyn icmasının üzvləri, müəllimlər üçün seminar-məşğələlər, şagirdlərin antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə profilaktik tədbirlər keçirilib.









## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Bundan əlavə, üzərində narkomanlığın fəsadları barədə xəbərdaredici məlumatlar əks olunan 46 sosial lövhə məktəblərdə quraşdırılmışdır.







Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.9-cu yarımbəndinə müvafiq olaraq, cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında antinarkotik təbliğat işinin gücləndirilməsi, penitensiar müəssisələrin əməkdaşları üçün təlimlərin keçirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu ilə imzaladığı tədbirlər planına uyğun olaraq 14 maarifləndirmə tədbiri həyata keçirilmişdir.










## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Həmçinin, üzərində narkomaniya və narkotiklərin fəsadları barədə xəbərdaredici məlumatlar əks olunan 18 ədəd yeni sosial lövhə Mühafizə Alayında, konvoy taborunda və cəzaçəkmə müəssisələrində quraşdırılmışdır.




Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.24-cü yarımbəndinə müvafiq olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu və Gənclər Fondu arasında antinarkotik təbliğat işinin gücləndirilməsi məqsədilə imzalanmış birgə Tədbirlər Planının icrası istiqamətində 2022-ci ildə Gənclərin İnkişaf və Karyera Mərkəzinin şəhər və rayonlarda fəaliyyət göstərən nümayəndəliklərinin mütəxəssis və əməkdaşlarının, könüllülərinin narkotik asılılıq probleminə dair biliklərinin və peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı ümumilikdə 51 təlim keçirilib.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ










Təlimlər çərçivəsində iştirakçılara sertifikatlar, "Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyyələr" adlı kitabça və digər zəruri təbliğat materialları təqdim edilmişdir.






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Bununla yanaşı Azərbaycan Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə ötən ilin iyun-sentyabr aylarında Şamaxı rayonunda təşkil edilən "Yay Fest"də iştirak edən gənclər arasında təlimlər keçirilmişdir.

















## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.23-cü yarımbəndinə əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Dövlət Komissiyasının İşçi Qrupunun birgə əməkdaşlığı çərçivəsində ictimai maarifləndirmə tədbirlərinin gücləndirilməsi məqsədilə bu istiqamətdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün təlim keçirilmişdir.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.2-ci yarımbəndinin icrası məqsədilə Səhiyyə Nazirliyinin təşəbbüsü ilə "Sağlam həyat və reproduktiv sağlamlıq" mövzusunda interaktiv tədbirlər təşkil olunmuş, Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirmə İnstitutu tərəfindən "Psixoaktiv maddələrdən asılılıqların müalicəsində yeni yanaşmalar" mövzusunda 34 həkim-narkoloq üçün ixtisasartırma kursunun keçirilməsi təmin edilmişdir.










## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.32-ci yarımbəndinin icrası məqsədilə Gənclər və İdman Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə tanınmış ictimai xadimlərin, incəsənət və idman ustalarının iştirakı ilə Lənkəran şəhərində "Narkomanlığa yox deyək" şüarı ilə qaçış marafonu keçirilmişdir.








## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.34-cü yarımbəndinə müvafiq olaraq, Mədəniyyət Nazirliyinin və Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun birgə təşkilatçılığı ilə narkotik asılılıq probleminə dair biliklərin, bacarıqların və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin və Sumqayıt Regional Mədəniyyət İdarəsinə tabeli müəssisələrin mütəxəsisləri üçün təlimlər keçirilmişdir.







## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Hesabat dövründə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən narkotik vasitələrin, psixotropmaddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması, 2022-ci ilin 1-ci yarımilinə dair iş planına əsasən, 2020 və 2021-ci illər ərzində narkotik vasitələrin və psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı istintaqı aparılan cinayət işlərinə prossesual rəhbərliyin vəziyyəti ilə bağlı ümumiləşdirmənin aparılması, bu sahədə qanunvericiliyin tətbiqi vəziyyətinin və beynəlxalq təcrübənin öyrənilməklə




müvafiq qanunvericilik aktlarına əlavə və dəyişikliklərə dair praktiki və institusional təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Eyni zamanda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi, hüquq mühafizə orqanları əməkdaşlarının peşə vərdişlərinin daha da inkişaf etdirilməsi istiqamətində Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətinin xüsusiyyətləri və aktual problemləri" mövzusunda təlim keçirilmişdir.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ



Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən yeniyetmə və gənclər arasında narkotik vasitələrdən istifadənin qarşısının alınması, hüquq-maarifləndirmə və sağlam həyat tərzinin təbliği mövzularında 78 şəhər və rayonda 1300-dən çox görüş keçirilmişdir.










## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Antinarkotik təbliğatın müasir forma və metodlarından istifadə edilməklə 4 videoçarx, 622 post, 153 sloqan və əməliyyat tədbirlərinə dair 584 sujet hazırlanaraq kütləvi informasiya habelə sosial şəbəkələrdə geniş işıqlandırılması təmin edilmişdir. Eyni zamanda müvafiq mövzuda blogerlər arasında "Ən yaxşı mahnı" və "Ən yaxşı qısametrajlı film" nominasiyaları üzrə müsabiqə elan edilmiş, qaliblərin mükafatlandırılması tədbiri keçirilmişdir.







Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə ali, orta ixtisas, ilk peşə ixtisas, ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrində, uşaq-gənclər inkişaf mərkəzlərində vətənpərvərlik, sağlam həyat tərzi və aidiyyəti mövzularda intelektual oyunlar, respublika yaradıcılıq müsabiqələri, sərgilər, forumlar, hərbi-idman oyunları, dəyirmi masalar təşkil edilmişdir. Eyni zamanda, təhsilalanlarda yaradıcı təfəkkürün inkişaf etdirilməsi, bilik və məlumatlılıq səviyyələrinin artırılması, istedadlarının üzə çıxarılması məqsədilə ölkədaxili və beynəlxalq səviyyəli tədbirlər təşkil olunmuşdur.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.7-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən "Ümumi təhsil müəssisələrinin VIII-IX siniflərində reproduktiv sağlamlıq mövzusunda məşğələlər üzrə metodiki vəsait" və eyni zamanda Azərbaycan Respublikası Təhsil İnstitutu tərəfindən "Təhsilalanların narkotik vasitələrdən və psixotrop maddələrdən qorunmasının tibbi-pedaqoji profilaktikası" adlı tədris-metodik vəsait hazırlanmışdır. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən sağlam həyat tərzinin təşkili məqsədilə respublikanın rayon və şəhərlərində fəaliyyət göstərən Olimpiya İdman Komplekslərində 2500-ə qədər gəncin iştirakı ilə "Əylənərək, öyrənirik" adlı 33 gənclər düşərgəsi təşkil edilib, gənclərin məşğulluğu və mövcud potensiallarının reallaşdırılmasının təmin edilməsi məqsədilə Tovuz rayonunda "Region Gənclərinin Məşğulluq Marafonu" keçirilib, nazirliyin tabeliyində olan Gənclər Evlərinin təşkilatçılığı ilə "Həyatını sağlam yaşa", "Narkotiki deyil, müsiqini seç", "Xoşbəxtlik sağlam həyatdadır", "Narkomanlıqla mübarizə hər birimizin vətəndaşlıq borcudur" və digər mövzularda ümumilikdə 81 təlim, konfrans və görüş təşkil edilmiş,






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

eyni zamanda rayon (şəhər) Gənclər və İdman İdarələri də "Narkomaniyaya qarşı mübarizə sağlam həyatın təminatıdır", "Uçuruma aparan yol", "Narkotiklə mübarizəyə sən də qoşul" və digər mövzularda dəyirmi masa, seminar, aksiya və müsabiqə formatında ümumilikdə 301 maarifləndirmə tədbiri həyata keçirmişdir.





Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin regional ekologiya və təbii sərvətlər idarələri yerli polis şöbələri ilə birlikdə narkotik xassəli bitkilərin yabanı halda bitmiş sahələrinin aşkar olunması üzrə müvafiq işlər həyata keçirmişdir.

Belə ki, Altıağac Milli Parkının Altıağac sahəsinin 7-ci dolay 31-ci kvartalında 570 ədəd, Şahdağ Milli Parkının İsmayıllı bölməsinin Talıstan meşəbəyliyinin 2 saylı meşə dolayı üzrə ərazidə 1850 ədəd, Samur-Yalama Milli Parkının





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Xudat meşə sahəsinin 8-ci dolayının ərazisində 28 ədəd, Zaqatala Dövlət Təbiət Qoruğunun Mazımqara sahəsində 172 ədəd, Ağcabədi Regional Meşə Təsərrüfatı Mərkəzinin 5 saylı meşəbəyliyinin 6 saylı dolayında 817 ədəd yabanı halda bitmiş narkotik tərkibli çətənə kolu aşkar edilərək, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aidiyyəti mütəxəssislərinin iştirakı ilə İsmayıllı rayonunda 1891 ədəd, İmişli rayonunda 25 ədəd, Lerik rayonu Orand kəndi və Yardımlı rayonu Alar kəndi istiqamətində yerləşən sərhəd zastavalarının xidməti ərazisində 4712 ədəd, Qax rayonunda 6620 ədəd, Qazax rayonunda 2000 ədəd, Qusar rayonunda 724 ədəd, Tovuz rayonunda 195 ədəd, Ucar rayonunda 224 ədəd, Goranboy rayonunda 3585 ədəd, Zaqatala rayonunda 14082 ədəd yabanı halda bitmiş narkotik tərkibli çətənə kolu aşkar edilərək, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir.





Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyindəki birlik, birləşmə, müəssisə və təşkilatlarda hərbi qulluqçular üçün narkotik vasitələrin və psixotrop maddələrin insan orqanizminə vurduğu zərər, onların cəmiyyətdə törətdiyi fəsadlar haqqında "Narkomaniya ağ ölüm deməkdir", "Narkomaniya insan həyatını qısaldır" "Ordu gəncləri narkomaniyaya yox deyir", "Sağlam həyat tərzi, ailə xoşbəxtliyini təmin edən amildir" və digər mövzularda mühazirələr oxunmuşdur.

Hərbi qulluqçuların narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınması istiqamətində peşəkarlığının artırılması məqsədilə komandir (rəis) heyəti, ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar üçün seminarlar və praktik təlimlər keçirilib, işğaldan azad olunmuş ərazilərdə yayılan narkotik tərkibli yabanı bitki növlərinin zərərli xassələrinin hərbi qulluqçular arasında təbliği təşkil edilmişdir.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.33-cü yarımbəndinə əsasən Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən həqiqi hərbi xidmət keçənlər və hərbi çağırışçılar arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat və maarifləndirmə işləri gücləndirilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Xarici İşlər Nazirliyi narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığı davam etdirmiş, onların müvafiq sorğuları cavablandırılmış, qarşılıqlı məlumat mübadiləsi aparılmış və aidiyyəti dövlət orqanlarının nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakının təmin edilməsində əlaqələndiricilik funksiyasını yerinə yetirmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan mədəniyyət mərkəzlərində, rəsm qalareyalarında və kitabxanalarda "Əsrimizin gənclərini qoruyaq", "Narkomaniyaya qarşı mübarizə sağlam həyata təminatdır" və "Narkomaniyaya qarşı mübarizədə birləşək" adlı rəsm sərgiləri, "Məhvə aparan narkomaniya" başlığı altında ənənəvi kitab sərgiləri, "Narkotik vasitələrlə mübarizə aparan gənclik" adlı disput təşkil edilmiş, Bakı Xoreoqrafiya Akademiyasında "Stop Narkomaniya" adlı rəqs-kompoziyası hazırlanmış, o cümlədən "Narkomaniyaya qarşı mübarizə və sağlam həyat tərzi" adlı mətbuat xülasəsi, "Ölümə gedən yol", "Pis vərdişlərdən yaxşı vərdişlərlə qurtulaq", "Narkomaniya əsrin bəlasıdır", "Narkomaniyaya qarşı mübarizə" mövzularında maarifləndirmə xarakterli tədbirlər keçirilmişdir. Həmçinin narkotik vasitələrin fəsadlarına dair "Xaş-xaşın göz yaşı", "Şeytan və ağ ölüm", "Ağ kəlağayı", "Mavi röya-qara yuxular", "Həyat tablosu" adlı teatr tamaşaları hazırlanaraq nümayiş olunmuşdur.





Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən cəzaçəkmə müəssisələrindən azad edilən 17 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir. Sosial Xidmətlər Agentliyinin "Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi" tərəfindən 45 nəfər baxımsız və kimsəsiz uşağın sosial reabilitasiyası həyata keçirilmiş və onlardan 19 uşaq ailəsinə reinteqrasiya olunmuşdur. Bundan əlavə "Sosial sığınacağın inkişafına dəstək" layihəsi çərçivəsində 134 nəfər uşağa xidmət göstərilmişdir. Eyni zamanda narkomanlığa qarşı mübarizə sahəsində "Özünü və ətrafını narkomaniyadan qoru", "Narkotik istifadəçisi ilə fərqimiz", "Kreativ videoçarx", "Ölümdən geri dön" adlı sosial çarxlar hazırlanmış və rəsmi sosial media səhifələrində, televiziya kanallarında və digər resurslarda geniş işıqlandırılması təmin edilmişdir.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ





Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Ağ ölümün qara fəsadları" adlı sərgi, "Hüquqlarına doğru irəlilə" şüarı ilə marafon yürüşü, şəhər və rayonlarda asudə vaxtın səmərəli təşkili məqsədilə şahmat üzrə turnir və ustad dərsləri, "Zərərli vərdişlərə yox deyək", "Həyatının memarı-Sən özünsən", "Gələcəyimizi bir yerdə qoruyaq, narkomaniyaya yox deyək" mövzularında maarifləndirmə və təbliğat xarakterli tədbirlər keçirilmiş, "Narkomaniyaya yox demək üçün səbəblər" adlı elektron məlumatlandırma vəsaiti hazırlanmış, rəsmi internet resurslarında yerləşdirilmiş və sosial şəbəkələrdə olan səhifələrində yayımlanmışdır.








## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən respublikanın bir çox şəhər və rayonlarında "Sağlam həyat tərzi, sağlam düşüncə", "İslam dinində zərərli vərdişlərə münasibət", "Zərərli vərdişlərə qarşı mübarizə mənəviyyatımızın xilasıdır", "Narkomanlığa qarşı mübarizədə dini və milli-mənəvi dəyərlərin rolu" və digər mövzularda maarifləndirmə tədbirləri keçirilmişdir.





Azərbaycan Respublikası Audiovizual Şurası Dövlət Komissiyasının müvafiq iclaslarında qəbul edilmiş qərarlara əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunun ümumölkə televiziya kanallarında işıqlandırılmasının monitorinqini həyata keçirmiş, aidiyyəti dövlət qurumları tərəfindən təqdim olunan sosial çarxların televiziya kanalları vasitəsilə geniş yayımlanması (2022-ci il ərzində ümumilikdə 28837 dəfə), televiziya kanallarında ekspertlərin iştirakı ilə xüsusi verilişlərin təşkil edilməsi, narkomanlığın zərəri ilə bağlı müəllif yazılarının hazırlanması təmin edilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Medianın İnkişafı Agentliyi tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin qəbulu və bununla bağlı yaranan problemlər haqqında vətəndaşlar arasında maarifləndirmə işinin daha təsirli təşkili məqsədilə qeyd olunan mövzuda çoxsaylı materialları hazırlanması və media subyektləri tərəfindən daha geniş işıqlandırılmasının təmin edilməsi üçün çap və onlayn media subyektlərinə müvafiq tövsiyələr verilərək mövzu üzrə 50-dən çox məqalənin dərc olunması təşkil edilmişdir.







Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən ötən il ərzində narkomanlığın zərəri barədə materialların hazırlanması üçün tədqiqat işlərinin aparılması davam etdirilmişdir. Eyni zamanda keçirilmiş ekspedisiyalar zamanı respublikanın ayrı-ayrı bölgələrində yabanı halda olan narkotik tərkibli bitki növlərinin müəyyənləşdirilməsi üçün mövsümə uyğun olaraq monitorinqlər aparılmışdır. Ölkə ərazisində yayılma yerlərinə uyğun olaraq daha çox şərqlaləsi, ziyilotu və dəlibəng bitki növlərinə rast gəlinmişdir.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ





Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 2022-ci ildə elan etdiyi qrant müsabiqəsi çərçivəsində "Ətraf mühitin və əhalinin sağlamlığının qorunması, narkomaniya ilə mübarizə məsələləri" istiqaməti üzrə 20 qeyri-hökumət təşkilatı layihəsinə 163500 AZN maliyyə vəsaiti ayırmışdır.

Azərbaycan Milli Antidopinq Agentliyi Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.23-1-ci yarımbəndinə uyğun olaraq, narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vasitələrdən istifadə etməklə təbliğat işinin təşkili, bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi, müvafiq qurumlarla əlaqə yaradılması və mövcud beynəlxalq təcrübənin tətbiqi istiqamətində idman federasiyaları, idmançılar və onların köməkçi heyəti üçün ümumilikdə 90 tədbirin keçirilməsini təmin etmişdir.



## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ






Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası narkomanlığın törətdiyi fəsadlar barədə Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Salyan, İsmayıllı, Goranboy, Masallı, Hacıqabul şəhər və rayonlarının təhsil müəssisələrində "Narkomaniya və onun fəsadları", "Narkotiksiz gələcək naminə", "İnternetdən təhlükəsiz istifadə" və s. mövzularda maarifləndirmə və təbliğat işləri aparılmışdır. Eyni zamanda ali məktəblərin tələbə həmkarlar ittifaqı komitələri də öz fəaliyyətlərində bu sahəyə xüsusi diqqət yetirməklə müvafiq tədbirlər həyata keçirmiş, tələbə-gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün idman, intellektual və digər yarış və müsabiqələr təşkil etmişlər.





2022-ci ildə şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar tərəfindən sağlam həyat tərzinin təbliğat və narkomanlığın zərəri ilə bağlı maarifləndirmə işinin əhatəsinin daha da genişləndirilməsi, antinarkotik təbliğatı işlərinin davamlılığının təmin edilməsi məqsədilə mövcud şəraitə uyğun olaraq bir sıra işlər görülmüş, müvafiq tədbirlərdə yeniyetmələr, gənclər və müəllimlər yaxından iştirak etməklə, mütəxəssislər tərəfindən onlara narkomaniya, onun doğurduğu fəsadlar, narkotiklərin cəmiyyətə və insan sağlamlığına ziyanı, törətdiyi sosial bəlalar barədə izahat xarakterli məlumatlar verilmişdir.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ










Həmçinin asudə vaxtın səmərəli təşkili istiqamətində şəhər, rayon gənclər evində, idman, mədəniyyət, incəsənət müəssisələrində sağlam həyat tərzinin təbliği məqsədilə müxtəlif sərgilər, idman yarışları, rəsm və inşa yazı müsabiqələri təşkil edilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Dövlət Proqramına uyğun olaraq, müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə, narkomanlığa qarşı mübarizədə əlaqələndirmə işi gücləndirilmiş, hüquq mühafizə orqanları tərəfindən əldə edilən göstəricilərin aylıq və rüblük nəticələri təhlil edilərək qiymətləndirilmiş, narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində ayrı-ayrı sosial təbəqələr üzrə təbliğat işinin təşkili sistemli xarakter daşımış, müvafiq dövlət qurumlarının, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin səylərinin artırılması, narkomanlığa qarşı profilaktik tədbirlərin və mariflənd irmə işinin aidiyyəti orqanlar tərəfindən birgə tədbirlər planları hazırlanaraq kompleks şəkildə təşkil edilməklə gücləndirilməsi təmin edilmişdir.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.4-cü yarımbəndinə müvafiq olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən "Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr" adlı kitabça, yeni forma və məzmunda "Narkotiklər haqqında həqiqəti bilin", "Marixuana haqqında həqiqət", "Psixotrop maddələr" adlı əyani vəsaitlər hazırlanmış, çap olunmuş və təşkil edilən təlimlərdə, maarifləndirmə tədbirlərində paylanılmış, eyni zamanda onlardan istifadənin təşviqi üçün internet resurslarında yerləşdirilməsi təmin edilmişdir.








Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.28-ci yarımbəndinin icrası məqsədilə, televiziya kanallarında təşkil edilən xüsusi verilişlərdə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun əməkdaşları və aidiyyəti dövlət orqanlarının nümayəndələri iştirak etmişdir.






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ







Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.18 və 4.4.26-cı yarımbəndlərinin icrası məqsədilə, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Bakı şəhərinin 12 rayonu üzrə ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, sinif rəhbərləri və məktəb psixoloqları üçün "Narkotik asılılıq, onun psixoloji səbəbləri və məktəbdə görülməli işlər" mövzusunda treninqlər təşkil edilmiş və ümumilikdə treninqlərə 420 nəfər cəlb edilmişdir.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ






Hesabat dövründə 59 şəhər və rayon üzrə yerli komissiyaların üzvləri ilə, din xadimləri və yerli qeyri-hökumət təşkilatları cəlb edilməklə görüşlər keçirilmiş, müvafiq müzakirələr aparılmış, metodiki kömək göstərilərək zəruri təbliğat materialları (elektron daşıyıcılarda) təqdim olunmuşdur.









## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.17-ci yarımbəndinə uyğun olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan Tibb Universitetində, Azərbaycan Texniki Universitetində, Azərbaycan Turizm və Menecment Universitetində, Bakı Slavyan Universitetində, Azərbaycan





Kooperasiya Universitetində, "Odlar Yurdu" Universitetində, ADPU-nin Şamaxı Filialında, 2 saylı Tibb Kollecində, Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollecində, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində narkomanlıq probleminə dair tələbələr üçün ictimai mühazirə və seminarlar keçirilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.18-ci yarımbəndinə müvafiq olaraq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu, "Gənclərin Anti-Narkomaniya" İctimai Birliyi, "Miqrasiya Sahəsinin İnkşafı" İctimai Birliyi və digər aidiyyəti qeyri-hökumət təşkilatları ilə birlikdə sosial və maarifləndirmə xarakterli tədbirlər təşkil etmişdir.





Narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı, bu sahədə həyata keçirilən tədbirlər və onların nəticələri barədə məlumatlılığın artırılması məqsədilə müvafiq razılaşmaya əsasən "İki Sahil" qəzetində rubrika açılmış və qrafikə uyğun olaraq aidiyyəti qurumlar tərəfindən təqdim olunan məqalələr hər həftənin şənbə günləri dərc edilmişdir.


İmperiya rəhbərlərini cinayətkar adlandıran LİDER

"Yeni enerji reallığının istiqamətləndirilməsi" mövzusunda dəyirmi masa keçirilib

Bərpaolunan enerji

iki sahil

Yerinə yetirə bilmədiyim sözü heç vaxt vermirəm

PREZİDENT İLHAM ƏLİYEV DAVOSDA CGTN TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERİB

"Carlsberg Group" şirkəti ölkəmizə yeni investisiyalar yatıracaq

Etibarlı və ciddi tərəfdaş

Azərbaycan neftinin qiyməti yenidən 91 dolları ötüb

Ağla qərənfil, ağla


iki sahil

Cəmiyyət

Ötən ilin 11 ayında 5 ton 252 kiloqramdan çox narkotik vasitə dövriyyədən çıxarılıb

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI ƏTİYYƏTLİ TƏDBİRLƏR DAVAM ETDİRİLİR

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Hesabat dövründə "26 iyun-Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü" ilə əlaqədar Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu aidiyyəti qurumlarla birlikdə:

-23-30 iyun tarixlərində Daxili İşlər Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin elektron informasiya tablolarında "Narkomanlığa birlikdə yox deyək" şüarının nümayişi;







- Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə sms maarifləndirmə layihəsi çərçivəsində 2022-ci ilin 25 iyun tarixindən başlayaraq sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı "Azərfon", "Bakcell" MMC və "Azercell Telekom" MMC vasitəsilə ümumilikdə 9,4 milyon aktiv abunəçiyə sms bildirişinin göndərilməsi;






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

- Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, "Azərbaycan Televiziya və Radio Verlişləri" QSC və Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında imzalanmış tədbirlər planına müvafiq olaraq Bakı şəhərinin Yasamal və Nəsimi rayonlarında, habelə respublikanın Gəncə və Sumqayıt şəhərlərində "Gənclər sağlam həyat tərzini seçir!", "Narkomaniyaya yox deyirik!", "Gələcəyimizə sahib çıxaq – Narkotiklərə yox deyək!", "Sağlam gələcəyi seç – Bizdən biri ol!" adlı silsilə fləşmobların təşkili;







eyni zamanda sosial şəbəkələrdə #Narkomaniyayason, #StopNarkomaniya həştəqləri ilə sosial aksiya keçirilmişdir."Twitter", "Facebook" və "İnstagram" platformaları üzərindən 8997 paylaşım edilməsi;






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ







- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci, Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi ilə birgə tədbirlərin, eyni zamanda Elm və Təhsil Nazirliyinin müvafiq göstərişinə əsasən digər ali və orta ixtisas təhsili müəssisələrində "Mən öz gələcəyimi seçirəm" mövzusunda seminarların və ictimai mühazirələrin təşkil edilməsi;










- İyun ayının 14-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Bakı Uşaq və Gənclər Teatrının səhnələşdirdiyi əsasən maarifləndirmə funksiyasını yerinə yetirən “Həyatla Oyun” tamaşasının “Açıq qapı” günü elan etməklə ali, orta ixtisas tələbələri, o cümlədən ictimaiyyət nümayəndələri və könüllüləri üçün canlı ifada nümayiş olunması;





Bununla yanaşı, görülən işlərin davamlılığının təmin edilməsi məqsədi ilə “Həyatla Oyun” tamaşası Bakı şəhər təhsil müəssisələrində, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbdə, Sumqayıt Dövlət Dram Teatrında, Abşeron rayon Mədəniyyət Evində və cəzaçəkmə müəssisəsində canlı ifada nümayiş olunmuşdur.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ










- şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar tərəfindən maarifləndirici silsilə tədbirlərin təşkili təmin edilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ






Eyni zamanda, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə metropolitenin stansiyalarının platforma, keçid, vestibüllərində, həmçinin sərnişin axınını tənzimləyən eskalatorlara yaxın sahələrdə sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı müasir dizayn ilə tərtib edilmiş 20 ədəd sosial lövhə yerləşdirilmişdir. Həmçinin stansiyalarda yerləşən monitorlarda narkotik vasitələrin və psixotrop maddələrin zərərli təsirlərini əks etdirən sosial təyinatlı videoçarxlar yayımlanmışdır.






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİKA İŞİNİN TƏŞKİLİ

Beləliklə, ümumilikdə ötən ilin 12 ayı ərzində maarifləndirmə tədbirləri çərçivəsində ümumilikdə 256 tədbir (şəhər, rayon komissiyaları ilə 59 görüş, televiziya kanallarında 4 dəyirmi masa, 116 təhsil müəssisəsində maarifləndirmə tədbiri, GİKM-nin şəhər və rayonlarında fəaliyyət göstərən nümayəndəliklərində və digər strukturlarda 62 təlim, 7 kütləvi-mədəni tədbir, idman növü üzrə 4 turnir və 4 fləşmob) təşkil edilmişdir.

Antinarkotik təbliğat işinin daha da gücləndirilməsi, maarifləndirmə tədbirlərinin sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsi məqsədilə Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında 2023-ci il üçün də birgə Tədbirlər Planı təsdiq edilmişdir.

Cəzaçəkmə müəssisələrində antinarkotik təbliğat işinin daha da gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən 2023-cü il üçün də birgə "Tədbirlər Planı" imzalanıb.

Gənclər arasında narkomanlığa qarşı təbliğat işinin gücləndirilməsi, könüllülərinin narkotik asılılıq probleminə dair biliklərinin və peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə 2023-cü il ərzində görüləcək işlərə dair Azərbaycan Respublikası Gənclər Fondu ilə Tədbirlər Planının həyata keçirilməsi planlaşdırılır.

2023-cü il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə bağlı vəziyyət barədə sorğuların keçirilməsi, həmçinin müxtəlif yaş qrupları arasında narkomanlığın yayılma dərəcəsini aşkarlamaq məqsədi ilə sosial araşdırmaların aparılması həyata keçiriləcəkdir.

Narkotik asılılıq və onun fəsadlarına dair biliklərin artırılması məqsədilə könüllülər üçün müvafiq mövzuda təlimlər və seminarlar təşkil ediləcəkdir.

Şagird və tələbələrin antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı intellektual müsabiqələrin keçirilməsi təşkil olunacaqdır.

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun dəstəyi ilə sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı əsasən maarifləndirmə funksiyasını yerinə yetirən və real həyat hadisələrini özündə əks etdirən "Həyat deyəsən davam edir" adlı çoxseriyalı filmin hazırlanaraq sosial şəbəkələr üzərindən yayımlanacaqdır.

Təbliğat və maarifləndirmə işlərinin daha təsirli metodlarla təşkili məqsədilə effektiv və təsirli sosial çarxların hazırlanması və kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılması, kütləvi informasiya vasitələrində daha dolğun məlumatların, müəllif yazılarının hazırlanması məqsədi ilə narkomanlığın spesifik cəhətləri ilə bağlı jurnalistlər üçün təlim kurslarının təşkili nəzərdə tutulmuşdur.

# QEYD

# QEYD

# QEYD

**İLLİK HESABAT**
**2022**